*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 may 2016-cı il № 36 (2051) Qiymәti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.*



## Sən qələbə qazanacaqsan!..

***Ön xətdə yerləşən hərbi hissədəyik. Səhər yenicə açılır, günəş üfüqdən təzəcə boylanırdı. Hava dumanlı və çiskinli idi. Qatı duman asta-asta üzü dağlara tərəf sürünürdü. Atılan aramsız topların gurultusundan yer-göy titrəyirdi. Təcrübəli hərbçilər atəşin səsindən onun hansı istiqamətdən atıldığını müəyyənləşdirə bilirdilər.***

Həmsöhbəti olduğum zabit Qafqaz Əsgərov ordumuzun son günlərin döyüşlərində qazandığı uğurlardan ürəkdolusu danışdı. Bildirdi ki, hərbi hissəmizin zabit və əsgərləri mövqelərimizə hücum edən düşməni əks-həmlə ilə geri oturdub. "Erməni işğalçıları döyüşçülərimizin dəqiq zərbələri qarşısında tab gətirə bilməyərək qorxaqcasına mövqelərini qoyub qaçdılar. Neçə gündən bəri qəsbkarlarla vuruşan oğullar bir azdan hərbi hissəyə qayıdacaqlar. Düşünürəm ki, onların danışdıqları sizin üçün də maraqlı olacaq."

Bu qeydləri atəş səsləri altında aparıram. Toplar bir an belə susmur. Hiss olunur ki, irəlidə gərgin döyüşlər gedir. Torpaqlarımızın müdafiəsində dayanan igidlər yağıları diz çökdürmək üçün hər addım uğrunda hünərlə, rəşadətlə vuruşurlar. Bu döyüş bizi qələbəyə aparır. Ön xətdən yaxşı xəbərlər gəldikcə hamının üzü gülür. Döyüşçülərimizin uğurlarından qürur hissləri keçiririk. Sevinc-sevincə qarışır, qəlbimizi fərəh hissi çulğayır...

Yeni məlumat əldə etmək üçün hərbi hissənin ərazisini gəzib silahını silib təmizləyən, yenidən döyüşə hazırlaşan, zirehli texnikanı yürüşə sazlayan hərbçilərlə görüşüb söhbət edirəm. Hamının məqsədi, məramı birdir: nəyin bahasına olursa-olsun, düşmənə qalib gəlib torpaqlarımızı azad etmək! Həmsöhbəti olduğum hərbçilərin ürəyi düşmənə nifrət və qisas hissi ilə döyünür. Təbiidir ki, onları sonda yalnız qələbə gözləyir. Bu gün düşməni məhv etməkdən, qələbə qazanmaqdan başqa yolumuz yoxdur.

Döyüşçülər yerbəyer olduqdan sonra vaxt itirmədən, erməni qəsbkarların hücumlarının qarşısını alarkən böyük cəsarət göstərmiş zabit və əsgərlərlə söhbət etdim. Döyüşlərdə iştirak etmiş zabit Pərviz Pirməmmədovun çöhrəsində yorğunluq hiss olunsa da, ovqatı yüksək idi, gözlərindən sevinc yağırdı.

- Ermənilər həm mövqelərimizə hücum etmiş, həm də yaşayış məntəqələrimizi atəşə tutmuşdular, - deyə zabit söhbətə başladı. - "Həyəcan" siqnalı verilən kimi düşmənin atəş nöqtələrini susdurmaq üçün irəli atıldıq. Düşməni minaatanlardan vurmağa başladıq. Qəsbkarlar nə qədər cəhd göstərsələr də, hədəfimizdən yayına bilmirdilər. Qısa müddətdə yağıların bir neçə atəş nöqtəsi susduruldu. Tankçılar qəsbkarların mövqelərinə mərmiləri yağdıra-yağdıra irəli şığıdılar. Atəş səslərindən yer-göy lərzəyə gəlmişdi. Mərmilərin səsi, gurultusu dağlarda əks-səda verib ətrafı silkələyirdi. Tankların arxasınca piyadalar da hücuma qoşuldu. Zərbələrimizin qarşısında duruş gətirə bilməyən ermənilər geri çəkilməyə başladılar. Qəsbkarlar ara-sıra atəş açaraq qaçırdılar. Güclü əks-həmlə nəticəsində ermənilərin mövqelərini darmadağın etdik. Strateji əhəmiyyətli yüksəklik azad olundu. Düşmən tələsik geri çəkildiyinə görə, mövqeyindən heç nə apara bilməmişdi. Ermənilər həm meyitlərini, həm silah-sursatlarını, həm də şəxsi əmlaklarını, mobil telefonlarını, hətta vacib sənədlərini də atıb qaçmışdılar. Silahları qənimət kimi götürdük. Əks-hücum zamanı işğalçıların xeyli canlı qüvvəsini məhv edərək onlara sarsıdıcı zərbə vurmuşduq.

(Ardı 3-cü səhifədə)



Zəfər bizim olacaq

3-cü səhifədə



Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibəti ilə Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

4-cü səhifədə



Vətənə sədaqət andı

5-ci səhifədə



"Ali Baş Komandanın bir əmri kifayətdir ki, ərazi bütövlüyümüz bərpa olunsun"

6-cı səhifədə

# Cəbhə bölgəsində yeni tikilən hərbi hissə istifadəyə verilib



Mayın 11-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu zonada yeni tikilən hərbi şəhərciklərdəki inşa işlərinin gedişatını yoxlayıblar.

Qərargah, əsgər yataqxanaları, döyüş texnikası üçün saxlanclar, sıra meydanı, yeməkxana, qazanxana-camaşırxana-hamamxana kompleksi və tikinti gedən digər obyektlərdə olan Müdafiə naziri müvafiq tapşırıq və tövsiyələrini verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ön xətdə yerləşən birləşmənin taboru üçün yeni tikilərək müasir avadanlıqlarla tam təchiz edilən hərbi hissə istifadəyə verilib.

Müdafiə Nazirliyinin rəhbərliyi açılışda iştirak edərək yeni inşa edilən qərargah, yeməkxana, qazanxana-camaşırxana-hamamxana kompleksi, nəzarət-buraxılış məntəqəsi, əsgər yataqxanası, o cümlədən inzibati, xidməti, ideoloji, istirahət və silah otaqları, əşya və ərzaq anbarları ilə tanış olublar.

Hərbi hissənin ərazisində daimi avtomatik generator quraşdırılıb, su, qaz, işıq və digər kommunikasiya xətləri təchiz edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən, hərbi hissəyə yaxın kəndlərdə yaşayan və burada işlə təmin edilən mülki heyətlə görüşüb, onların şəraiti ilə maraqlanıb.





Sonra Müdafiə naziri hərbi hissənin şəxsi heyətinə Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

Müdafiə naziri cəbhəboyu zonada ön xətt boyu yerləşən yeni hərbi hissələrin tikintisi ilə bağlı müvafiq tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

# “Düşmən aprel döyüşləri zamanı Ermənistandakı bütün qüvvələrini bölgəyə cəlb etmişdi”

Azərbaycan və Ermənistan prezidentlərinin 2014-cü ilin noyabrındakı görüşündən sonra Ermənistan tərəfi Dağlıq Qarabağ ərazisində böyük hərbi təlim keçirdi. Ermənistan həmin dövrdə gərginliyə hesablanmış addım atdı və bunu məqsədyönlü şəkildə etdi. Təmas xəttindən başqa, sərhəddə olan ərazilərdəki mövqelərimizi də atəşə tutan Ermənistan bununla da başqa ölkələri münaqişəyə cəlb etməyə çalışırdı.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı mayın 13-də "Təmas xəttində son hadisələr: beynəlxalq humanitar hüququn problemləri" mövzusunda Milli Məclisdə keçirilən dinləmələrdə çıxışında deyib.

Ötən ilin payızından etibarən, Ermənistan tərəfinin qoşunların təmas xəttinə yaxın ərazilərdə və sərhəddə mülki əhalini atəşə tutduğunu deyən V.Dərgahlı bildirib ki, 2016-cı ilin martından başlayaraq Ermənistan tərəfi əhalini atəşə tutmağı daha da gücləndirdi. Vəziyyəti gərginləşdirmək məqsədilə erməni hərbi birləşmələri artilleriya qurğularından həm döyüş mövqelərimizi, həm də təmas xəttinə yaxın olan yaşayış məntəqələrini atəşə tuturdu. Düşmən aprelin 2-nə keçən gecə bütün mövqelərimizi, eyni zamanda mülki əhalini atəşə tutdular. Azərbaycan tərəfindən adekvat tədbirlər görülməsi ilə bağlı qərar qəbul edildi və cavab zərbələri endirildi. Düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən koordinatları müəyyənləşdirildi, canlı qüvvəsi və hərbi texnikası məhv edildi.

Aprelin ilk günlərindəki döyüşlərdə düşmənin itkiləri barədə məlumat verən V.Dərgahlı bildirib: "Cəbhənin ən gərgin istiqaməti Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti idi. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri aprelin əvvəlində qısa müddətdə düşmənin ön və dərinlikdə cəmləşən qüvvələrini müəyyənləşdirdi və sıradan çıxardı. Naftalan şəhərinə təhlükə yaradacaq Talış kəndi istiqamətindəki yüksəkliklər, Horadizə təhlükə yaradan Lələtəpə yüksəkliyi azad edildi. Düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 döyüşçü öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi. Silahlı Qüvvələrin həyata keçirdiyi əks-həmlə əməliyyatının məqsədi Ermənistan silahlı qüvvələrinin təmas xəttindəki yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi və bu, uğurla yerinə yetirildi. Düşmən tərəfi bu hadisələr zamanı Ermənistandakı bütün qüvvələri bölgəyə cəlb etmişdi."

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi həmin əməliyyatlar zamanı Azərbaycanın hərbi qüvvələrinin çox az hissəsinin - əsasən ön mövqedəki qüvvələrinin bir qisminin cəlb olunduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan Şəmkir korpusunu, Naxçıvandakı Əlahiddə Ordunu, hərbi təyyarələri bu əməliyyatlara cəlb etmədi. Düşmən isə Ermənistandakı bütün qüvvələrini bölgəyə cəlb etmişdi. Bununla belə, düşmənin səyləri heç bir nəticə vermədi.

# Azərbaycan və Ermənistan hərbçilərinə cəbhədə yaradılan şərait

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təqdim olunan foto materiallarda azad edilmiş ərazilərdə erməni əsgərlərinin 22 il ərzində "yaşayışı üçün" yaradılmış şərait əks olunub. Tərifi "göylərə sığmayan Ermənistan ordusunun" necə acınacaqlı vəziyyətdə xidmət etdiklərini bu fotolardan açıq-aydın müşahidə etmək olur.



Fərq müqayisə zamanı daha aydın görünür. Təqdim edilən materiallardan da göründüyü kimi aclıq, səfalət, qeyri-insani sosial şəraitdə yaşayan Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri ilə müqayisəyə gəlməyəcək dərəcədədir.

Digər fotolarda isə aprelin əvvəllərində erməni işğalından azad edilmiş həmin mövqelərdə qısa müddət ərzində hərbi qulluqçularımız üçün yaradılmış şərait təqdim edilir.



Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu zonada yerləşən bütün mövqelərində şəxsi heyət üçün bu cür şərait yaradılıb.

# Sən qələbə qazanacaqsan!..

(Əvvəli 1-ci səhifədə)

Vaxt itirmədən azad etdiyimiz yüksəklikdə mövqe tutub möhkəmləndik. Geri çəkilən düşmən bir azdan hücuma keçməyə cəhd göstərdi. Möhkəmlənmək istədiyimiz mövqelər qəflətən müxtəlif təyinatlı silahlardan atəşə tutuldu. Canlı qüvvəsini itirən işğalçılar geri çəkilməli oldular. Düşməni geri qovandan sonra mövqelərimizi möhkəmləndirməyə davam etdik.

Qazandığımız uğurdan ürəyimiz açılmışdı. Neçə vaxt idi ki, qələbə sevincinin həsrətini çəkirdik. Çoxdan bəri gözlədiyimiz xoşbəxt anları yaşayırdıq. Taborun şəxsi heyəti döyüşlər zamanı hünər və qəhrəmanlıq göstərdi. Düşmən üzərinə hücuma keçən əsgərlərimizin gözündə intiqam qığılcımı, çöhrəsində qisas yanğısı gördüm. Onlar qəsbkarların üstünə bu hisslərlə yeriyirdilər, bu hisslərlə vuruşurdular. Döyüşlərdə fərqlənən zabitlərdən Səid Rəşidzadənin, Nicat Abbasovun adlarını çəkmək istərdim. Onlar üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Ümumiyyətlə, komandir kimi şəxsi heyətin göstərdiyi şücaətdən, igidlikdən çox razı qaldım. Belə də gözləyirdim. Bilirdim ki, əsgərlərimiz düşmənə qarşı cəsarətlə vuruşacaqlar. Çünki onlar təlim-məşqlər zamanı yüksək peşəkarlıq göstərir, hədəfləri dəqiq vururdular. Belə peşəkarlıq mütləq onlara qələbə sevinci yaşatmalıydı. Yaşatdı da! Döyüşə inamla, qorxmadan, qələbə əzmi ilə atıldılar.



- Pərviz, bəs sən özün düşmən üzərinə hansı hisslərlə hücuma keçmişdin? O gərgin anlarda nə düşünürdün, nə fikirləşirdin?

- İlk növbədə məni düşmən üzərinə aparan bir istək idi - torpaqlarımızı azad görmək istəyi, - deyə o, söhbətinə davam edir. - Bir zabit, bir vətəndaş kimi sualınıza tam səmimi cavab verərək deyim ki, düşmən üzərinə intiqam hissi ilə, Qarabağ uğrunda şəhid olmuş oğulların qisasını almaq hissi ilə gedirdim. Onlar düşmən gülləsinə tuş gələrkən son nəfəslərində "Qanımızı yerdə qoymayın, düşməndən qisasımızı alın," - deyiblər. Bəs, bunu kim eləməlidir? Əlbəttə, mən, sən, o. Qəsbkarların üzərinə əks-həmləyə keçərkən yalnız qələbə qazanmağı düşünürdüm. Şükürlər olsun ki, hər şey fikirləşdiyim kimi oldu. Biz işğalçıları mövqelərindən geri qovmağı bacardıq. Ermənilər Azərbaycan əsgərinin cəsarəti və hünəri qarşısında diz çökdü. Son döyüşlər bir daha göstərdi ki, ordumuz güclü və qüdrətlidir. İnanıram ki, bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcək qələbələrinin yalnız başlanğıcıdır.

Söhbətimi döyüşlərdə fərqlənən əsgərlərlə davam etdirdim. Pulemyotçu əsgər Şirin Məmmədov ordu sıralarına ötən ilin iyulunda Şamaxı rayonundan çağırılıb. Xidmətinə məsuliyyətlə yanaşması, təlimlərdə fəal iştirak etməsi sayəsində silahların sirlərinə mükəmməl yiyələnib. Bölükdə iriçaplı pulemyotun mahir atıcılarından biri kimi tanınır. O, son döyüşdə uğur qazandığına görə qürur hissi keçirirdi. İştirakçısı olduğu savaşdan söz açan əsgər dedi:

- Torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün döyüşə atıldıq. Düşmən üzərinə qorxmadan, cəsarətlə gedirdik. Yağıları məhv etməyə hazır idik. Mövqelərimizdə möhkəm dayanıb ciddi müqavimət göstərirdik. Güllələri düşmənin üstünə dolu kimi yağdırırdıq. Tankların irəli getməsinə əmr verildi. Biz zirehli texnikaların arxasınca irəliləyirdik. Ermənilərin mövqelərinə yaxınlaşan kimi tanklar atəş açdı. Biz də mövqe tutub vuruşmağa başladıq. Pulemyotumla düşmənin başına od ələyirdim. İşğalçılar qarşımızda yalnız iki saat duruş gətirə bildilər. Sonra qaçmağa başladılar. Bir-birinin ardınca düşmənin üç mövqeyini ələ keçirib uğrunda vuruşduğumuz yüksəkliyi azad etdik. Vaxt itirmədən həmin yerdə möhkəmləndik.

- Döyüşə qələbə əzmi ilə gedirdik, - deyə əsgər Mehman Bayramov da söhbətimizə qoşuldu. - Bölüyün sanitar-təlimatçısıyam. Döyüşdə yaralanan zabit və əsgərlərə ilkin tibbi yardım göstərdim. Hamımızın döyüş ovqatı yüksək idi. Torpaqlarımıza hücum edən, yaşayış məntəqələrimizi atəşə tutan erməni qəsbkarlarını məhv edəcəyimizə əmin idik. Əks-həmləmiz qarşısında dayana bilməyən düşmən qaçmağa üz qoydu. Strateji əhəmiyyətli yüksəkliyi azad etdik. Sevincimizin həddi-hüdudu yox idi. Döyüşdə yüngül yaralanan gizir Şiriyevə və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məmmədova ilkin tibbi yardım göstərdim. Sonra onlar hospitala çatdırıldı. İndi döyüşçülərimizin ikisi də sağ-salamatdı. Əməliyyat zamanı komandirlərin qarşımıza qoyduğu bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirdik. Əgər ermənilər bir də atəşkəs rejimini pozmağa cəhd göstərsələr, onlara daha böyük zərbə vuracağıq.

Döyüşlərdə hünər göstərmiş zabit və əsgərlərlə söhbətdən ürəyim dağa döndü. Bu oğullar erməni işğalçıları ilə üz-üzə vuruşublar, qəsbkarlara sarsıdıcı zərbələr endiriblər. Əməliyyatdan geri dönmüş hərbçilərimizin hər biri yalnız sülh danışıqları baş tutmasa, zabit və əsgərlərimizi son, qəti döyüş gözləyir.

Göy üzünə baxdım...

Göy üzü də sevinc içində idi. Sən qələbə qazanacaqsan, Azərbaycan əsgəri! Həm də yaxın vaxtlarda...

Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin Qəbələdə görüşü planlaşdırılır

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəsmi dəvətilə mayın 14-də Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli və Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmazın Azərbaycan Respublikasına rəsmi səfəri planlaşdırılır.

Səfər çərçivəsində Qəbələ şəhərində nazirlər arasında təkbətək və üçtərəfli formatda danışıqlar nəzərdə tutulub.

Müdafiə nazirlərinin Qəbələ şəhərinə səfəri mayın 15-dək davam edəcək.

## Əsgərimiz şəhid olub

Mayın 12-də qoşunların təmas xəttində düşmənlə atışmada Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Ərəbli Rahil Rafiq oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Ermənistanın silahlı bölmələri Tərtərin yaşayış məntəqəsini atəşə tutmağa başlayıb

Mayın 13-ü saat 18.20 radələrindən etibarən Ermənistan silahlı bölmələri tərəfindən Tərtər rayonunun Qəzyan kəndinin ərazisi 120 millimetrlik minaatanlardan atəşə tutulmağa başlayıb.

Silahlı Qüvvələrimizin bölmələri tərəfindən əməliyyat şəraitinə uyğun tədbirlər həyata keçirilir, düşmənin atəş nöqtələrinə cavab zərbələri endirilir.

Bu cür təxribatların nəticəsi olaraq gələcəkdə baş verə biləcək hadisələrə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

# Zəfər bizim olacaq



***"N" hərbi hissəsində olarkən düşmənlə döyüşlərdə iştirak etmiş Vətən müdafiəçiləri ilə görüşdüm. Zabit Rasim Manafov bildirdi ki, düşmən təxribatının qarşısının alınmasında onların da şücaətləri az olmayıb. "Düşmən hücumunun qarşısının qətiyyətlə alınması bir daha göstərdi ki, hərbi qulluqçularımız Vətənin keşiyində ayıq-sayıq dayanıblar."***

Döyüşlərdə iştirak etmiş zabit Fuad Ələkbərovu xeyli vaxtdır tanıyıram. Vətənpərvər, təcrübəli zabitdir. Ürəyi Vətən sevgisi ilə döyünür. Müdriklər doğru deyiblər ki, "niyyətin hara, mənzilin ora."

Orta məktəbi bitirdikdən sonra müvəffəqiyyətlə imtahan verərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Təhsil illərində nizam-intizamlı kursant kimi tanınıb. Hərbi biliklərə dərindən yiyələnib. Fuadın vətənpərvərliyi, intizamlı, çalışqan olması onun uğurlarının sayını daha da artırıb. Həmişə ön xətdə xidmət edən zabitin əməyi komandanlıq tərəfindən yüksək qiymətləndirilib. Fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb, "Vətən uğrunda" medalı ilə təltif olunub.

Düşmən təxribatının qarşısının alınmasında da Fuad silahdaşları ilə birgə yüksək döyüş məharəti göstərib. Zabit Ələkbərov deyir:

- Qürur duyuram ki, igidlərimizlə birgə düşmənin layiqli cavabını verdik. Onlar bir daha hiss etdilər ki, ordumuzun qüdrəti, gücü daha da artıb. Azərbaycan əsgəri doğma Vətənini, torpağını canından artıq sevir. Qələbənin qazanılmasında göstərilən yenilməzlik, şücaət deməyə əsas verir ki, torpaqlarımızı tezliklə düşməndən azad edəcəyik. Bu istiqamətdə artıq ilk qələbəyə imza atmışıq.

Aprel döyüşlərində zabit Kamil Muradovun da xidməti əvəzsiz olub. O bildirdi ki, döyüşdə iştirak edən əsgər və zabitlərimiz yüksək vətənpərvərlik hissinə, döyüş əzminə malikdirlər.

"Düşmən üzərində qələbəmizi böyük zəfərimizin başlanğıcı hesab edirik. İnanıram ki, ordumuzun qüdrəti ilə torpaqlarımızı düşməndən azad edəcəyik və müstəqilliyimizin, dövlətçiliyimizin rəmzi olan üçrəngli bayrağımız Azərbaycanın hər yerində dalğalanacaqdır."

Öyrənirəm ki, aprel döyüşlərində zabitlər Elvar Cəfərov, Ağabala Manafov, Rəşad Qasımov, Hilal Tanrıverdiyev, Behbud Mirzəyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Eltun Bayramov, Əlibaba Zeynalov, Fehruz Usubov, Əli Həmzəyev, əsgərlər Zülfü Xəlilov, Hörmət Ədilov, Nəcmi Rəhimov, Orxan Qasımlı, Nicat Şərifli və başqaları da fərqləniblər.

İnanırıq ki, əsgər və zabitlərimiz ordumuzun zəfər yürüşünü davam etdirərək Vətən torpaqlarını işğaldan azad edəcəklər. Bütün döyüşlərdə zəfər bizim olacaq!

Mübariz MUSAYEV,
"Azərbaycan Ordusu"

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibəti ilə Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə və hərbi hissələrdə silsilə tədbirlər keçirilib. Müdafiə nazirinin göstərişinə əsasən, şəxsi heyət təsdiq olunmuş plan üzrə Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, hərbi hissələrdə ulu öndərin həyat və yaradıcılığı barədə videofilmlər nümayiş etdirilib, ictimai-siyasi hazırlıq dərslərində söhbətlər aparılıb, eləcə də digər mədəni-kütləvi tədbirlər təşkil olunub.***




Ümummilli lider Heydər Əliyevin doğum günü münasibəti ilə Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin əsgərləri mayın 10-da baş leytenant Elvin Qurbaninin rəhbərliyi altında Kürdəmir rayonunda yerləşən Heydər Əliyev Muzeyinə ekskursiya ediblər. Əsgərlər muzeydə ulu öndərin həyat və yaradıcılığından bəhs edən ekspozisiyalarla tanış olublar. Geniş, işıqlı və zəngin muzeylə tanışlıq döyüşçülərdə xoş təəssüratlar və qürurverici anlar yaşadıb.



Muzeyin işçisi əsgərləri ekspozisiyalarla tanış edib. Onlar əvvəlcə dahi rəhbərin həyat və fəaliyyətindən bəhs edən bölmədə olublar, ulu öndərin doğulduğu ailədən, təhsil illərindən bəhs edən stendlərə maraqla baxıblar. Daha sonra ulu öndərin həyata keçirdiyi islahatlardan, siyasi fəaliyyətindən bəhs edilib. Dahi rəhbərin Azərbaycanın müstəqilliyi yolunda gördüyü mühüm işlərdən, Azərbaycanın inkişafına verdiyi töhfələrdən danışılıb. Sonda əsgərlər ümummilli liderin ordu quruculuğu strategiyasından bəhs edən zəngin ekspozisiya ilə tanış olublar. Ekspozisiyada ulu öndərin hərbçilərlə görüşü, hərbi hissələrə səfəri, döyüş bölgələrində, səngərlərdə əsgərlərlə birgə çəkdirdiyi şəkilləri əks olunub. Həmçinin ordu quruculuğu sahəsində nailiyyətlər qazanmış hərbi qulluqçuların ulu öndər tərəfindən mükafatlandırıldığını əks etdirən stendlər də əsgərlərdə maraq doğurub.

Baş leytenant Elvin Qurbani bizimlə söhbətində belə tədbirlərin şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsində böyük rol oynadığını vurğulayıb.

* * *

Hərbi Dəniz Qüvvələrində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbir öncəsi ümummilli lider Heydər Əliyevin abidəsi önünə güllər qoyulub, xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Tədbiri Hərbi Dəniz Qüvvələri komandanının şəxsi heyətlə iş üzrə müavini, birinci dərəcəli kapitan Natiq Bağırov açaraq bildirib ki, Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü ulu öndərin adı ilə bağlıdır. "Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin bütün dövrlərində Azərbaycan iqtisadi yüksəlişə, elmi tərəqqiyə nail olub", - deyə zabit onun həyata keçirdiyi islahatların böyük gələcəyə hesablandığını qeyd edib.

Zabit Ruslan Qasımov isə "Heydər Əliyev və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi" mövzusunda çıxışında qeyd edib ki, hərbi vətənpərvərlik hissi insanın öz doğma Vətəninə həddsiz məhəbbət bəsləməsində, xalqının uğurlarına ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində, yurdunun hər qarışını göz bəbəyi kimi qorumasında, döyüş bacarığına yiyələnməsində ifadə olunur. "Ulu öndərin Vətənimizə olan sevgisi gənclərimizə örnəkdir. Hazırkı dövrdə Azərbaycan gənclərinin hərbi vətənpərvərlik tərbiyəsi daha mühüm əhəmiyyət kəsb edir", - deyib.

"Heydər Əliyev Azərbaycan Ordusunun yaradıcısıdır" mövzusunda çıxış edən zabit Məhəmməd Ələkbərov da ulu öndərin keçmiş ittifaq və müstəqillik dövrlərində Azərbaycana rəhbərlik edərkən ordu quruculuğuna, hərbi kadrların hazırlığı məsələsinə xüsusi diqqət yetirdiyini bildirib. "Onun gördüyü işlər xalqın yaddaşının özünə qayıdışı, milli özünüdərkin, milli ruhun həddsiz yüksəlişinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanın bugünkü zəngin elmi, iqtisadi, mədəni, kadr potensialının təməlində dahi rəhbər Heydər Əliyevin adı dayanır. Məhz onun fədakar xidmətləri sayəsində bu gün ordumuz Qafqazın ən güclü ordusuna çevrilib. Xalqımız fəxr duyur ki, belə uğurlu siyasət hazırda Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilir."

Tədbirin sonunda şəxsi heyət Hərbi Dəniz Qüvvələrinin qərargahında Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən təşkil olunmuş Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən foto-sərgi ilə tanış olub.

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda tədbir keçirilib.

Əvvəlcə ulu öndərimizin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.



Muzeyin rəis müavini, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov tədbiri açıq elan edib. O, çıxışında Azərbaycanın son 30 ildən artıq bir dövrünün Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlı olduğunu vurğuladı. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişin əldə olunduğunu deyən natiq Heydər Əliyevin müstəqilliyimiz dövründə ordu quruculuğu sahəsində gördüyü işlərdən danışdı. O bildirdi ki, ulu öndərimizin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən islahatlar, orduda vahid komandanlığın yaradılması, qoşun hissələrinin təxribatçı ünsürlərdən təmizlənməsi və s. Azərbaycan Ordusunun qısa vaxtda formalaşmasına səbəb oldu.

Sonra ulu öndər Heydər Əliyevin sovetlər dövründə hakimiyyətinin birinci mərhələsi ilə bağlı muzeyin elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru Zəfər Kərimov çıxış etdi. O, Heydər Əliyevin Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə xüsusi diqqət yetirdiyini dinləyicilərin diqqətinə çatdırdı.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş "Xalqa bağışlanan ömür" qısametrajlı sənədli filmin nümayişi ilə tədbir davam etdirildi.

Yasamal rayonundakı 308 saylı tam orta məktəbin şagirdləri ulu öndərə həsr olunmuş şeirlər söylədilər.

* * *



"N" hərbi hissəsində də ümummilli liderin doğum günü münasibəti ilə mərasim keçirildi. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyevin büstü önünə gül dəstələri qoydular və əbədiyaşar komandanın xatirəsini hörmətlə yad etdilər. Polkovnik-leytenant Ziyad Tağıyev, mayor İlqar Nəhmətov, kapitan İxtiyar Əliyev və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin ordu quruculuğu və dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlı göstərdiyi misilsiz xidmətlərindən danışdılar.

Mərasiminin sonunda ulu öndərin şərəfli ömür yolundan bəhs edən film nümayiş etdirildi.

**"Azərbaycan Ordusu"**

# Vətənə sədaqət andı

***Mayın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Silahlı Qüvvələrin birlikləri, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.***



Bu günü illərlə gözləyən valideynlər, ictimaiyyət nümayəndələri, yeniyetmə və gənclər nəzarət-buraxılış məntəqəsinə toplaşıblar. Böyük qələbəlik var. Çox keçmir ki, onları hərbi hissəyə dəvət edirlər. Mərkəzi meydanda sıralarda dayanan gənc əsgərlərə baxan valideynlər qürur hissi keçirirlər.

Öncə hərbi hissənin həyətində ümummilli lider Heydər Əliyevin büstü önünə əklillər qoyuldu. Sonra təntənəli mərasim mərkəzi meydanda davam etdirildi. Polkovnik Allahverdi Hacıyev gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə general-mayor Xəqani Cəbrayılova raport verdi. Ali rütbəli zabit gənc əsgərləri salamladı və onları təbrik etdi.

Zabit Allahverdi Hacıyev çıxışında bildirdi ki, ulu öndərin təşkilatçılığı ilə formalaşan Azərbaycan Silahlı Qüvvələrindəki quruculuq işləri müasir dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Yüksək diqqət və qayğının bəhrəsidir ki, Silahlı Qüvvələrimiz daha da möhkəmlənib və regionun ən güclü ordusuna çevrilib. Aprelin əvvəllərində düşmən təxribatlarının qarşısının alınması bir daha göstərdi ki, Silahlı Qüvvələrimiz işğalçı ölkənin ordusundan qat-qat güclüdür. Bütün dünya Azərbaycanın haqq səsini müdafiə etdi, ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini bildirdi."

Zabit çıxışında bildirdi ki, xidmət etdiyimiz hərbi hissə də ulu öndərin xeyir-duası ilə yaradılıb. "Hərbi hissənin şəxsi heyəti Sədərək, Tərtər, Ağdərə, Füzuli bölgələrində düşmənə qarşı döyüşlərdə fəal iştirak edib. Bir çox əsgər və zabitlərimiz yüksək fəxri adlara, orden və medallara layiq görülmüşdü. Ən unudulmaz hadisə isə ulu öndərlə hərbi hissədə keçirilən görüşlərdir. Şəxsi heyətimiz ümummilli liderin ideyalarını həyata keçirmək üçün həmişə böyük fədakarlıq göstərir. İnanıram ki, bu gün hərbi andı qəbul edən gənclərimiz də Vətənimizin etibarlı keşikçiləri olacaqlar."

Müdafiə nazirinin gənc əsgərlərə təbrik məktubu oxundu.

Qobustan rayonundan gəlmiş gənc əsgər Sənan Aslanovun babası Tanrıverdi Hüseynov valideynlər adından çıxış edərək bildirdi ki, bu gün bizim üçün tarixi gündür. "Xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin anadan olmasının 93-cü ildönümüdür.



Onun mənalı həyatı, dövlətçilik fəaliyyəti, Vətənə, xalqımıza misilsiz xidmətləri bugünkü və gələcək nəsillərə örnəkdir. Biz qurub-yaratmağı, Vətəni qoruyub müdafiə etməyi onun zəngin həyatından və yorulmaz fəaliyyətindən öyrənməliyik. Ulu öndərin zamanında başladığı islahatlar onun layiqli yetirməsi, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin siyasi, iqtisadi, hərbi qüdrəti daha da güclənir. Artıq ordumuz müasir tələblər səviyyəsində qurulub. Aprelin əvvəllərində düşmən təxribatlarının qarşısının alınmasında Silahlı Qüvvələrimizin göstərdiyi rəşadətləri böyük qürur hissi ilə qarşıladıq. Orduya inamımız daha da gücləndi. İnanırıq ki, ordumuzun zəfər yürüşü davamlı olacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək."

Gənc əsgərlər adından çıxış edən Ruslan Bolşiyev isə qeyd etdi ki, onlar göstərilən etimadı doğruldacaq, Vətənin müsəlləh əsgərləri olacaqlar.

* * *

Hərbi Dəniz Qüvvələrində də gənc matroslar həyatlarında əbədi qalacaq bir gün yaşadılar.

Tədbirdə çıxış edən polkovnik Saleh Kələntərov matrosları əlamətdar gün münasibətilə təbrik etdi, onlara hərbi xidmətdə uğurlar arzuladı.

Andiçmə mərasimində polkovnik-leytenant Adil İsayev, gənc matroslar adından Seymur Babayev, valideynlərdən Təzəxan Əsgərli və başqaları çıxış edərək matrosları təbrik etdilər. Onlara dəniz sularında ölkəmizin təhlükəsizliyinin təmin edilməsi naminə şərəfli xidmətlərində uğurlar arzuladılar.

Gənc matrosların andiçmə mərasiminə həsr edilmiş tədbir Bakı şəhəri Mədəniyyət və Turizm İdarəsinin təşkil etdiyi bayram konserti ilə başa çatdı.

* * *

Hərbi Hava Qüvvələrinin hərbi hissələrində ümummilli lider Heydər Əliyevin doğum gününə və gənc əsgərlərin andiçmə mərasiminə həsr olunmuş tədbir keçirilib.

Mayor Teyfur Aslanov tədbiri açıq elan edərək qonaqları salamlayıb. O, çıxışında Heydər Əliyev siyasətinin Azərbaycanın hər sahəsində olduğu kimi, ordu quruculuğunda da mühüm baza olduğunu qeyd edib.

Həmin gün gənc əsgərlərin bayramında iştirak etmək üçün Azərbaycanın müxtəlif bölgələrindən valideynlər hərbi hissəyə gəlmişdilər. Bakının Yasamal rayonundan gələn əsgər atası Asif Nəbiyev gənc əsgərlərə ürək sözlərini çatdırıb: "Vətənə xidmət etmək hər kəs üçün şərəflidir. Sizlərə uğurlar arzulayıram. Biz valideynlər bu gün çox qürurluyuq ki, övladlarımız Vətənə sədaqət andı içirlər. Bu bayramda iştirak edən bizlər üçün övladlarının tribuna qarşısında təntənəli keçidi ən maraqlı və unudulmaz anlardan biridir."

Sonra Lənkəran rayonundan gələn əsgər atası Fuad Nəhmətov də çıxış edib. Əsgərlərin nümunəvi xidmət keçməsi üçün hərbi hissədə yaradılan şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirən valideyn də qeyd edib ki, təntənəli surətdə hərbi and qəbul etmək hər bir əsgərin həyatında unudulmaz məqamdır. "Övladlarımızın komandirlərin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirərək Vətənimizə layiqli döyüşçü olacaqlarına inanırıq", - deyən valideyn əsgərlərə torpaqlarımızı işğaldan azad etməyi və Qarabağın hər bir guşəsinə Azərbaycanın üçrəngli bayrağını sancmağı arzulayıb.

* * *



Andiçmə mərasimini açıq elan edən polkovnik-leytenant İkram Səfərov gənc əsgərləri və şəxsi heyəti əlamətdar gün münasibəti ilə təbrik etdi. Bildirdi ki, bu gün bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. "Məhz son illər dövlətimizin məqsədyönlü siyasəti sayəsində ordumuz regionun ən güclü ordusuna çevrilib. Aprel hadisələri isə bunu bir daha düşmənlərimizə və bütün dünyaya subut etdi."

Mayor Vüsal Məmmədov da əsgərləri əlamətdar gün münasibəti ilə təbrik edərək onlara nizam-intizamlı olmağı, komandirlərinin əmr və tapşırıqlarını sözsüz yerinə yetirməyi və Vətənimizi göz bəbəyi kimi qorumağı tövsiyə etdi.

Daha sonra söz gənc əsgər İlkin Sadıqova verildi. O, təntənəli surətdə hərbi andı qəbul edərək bildirdi ki, Vətənimiz Azərbaycana və onun xalqına sadiq olacağımıza, ərazi bütövlüyümüzü və müstəqilliyimizi qoruyacağımıza söz verdik.

Əsgər Nihad Mustafayev də silahdaşı ilə həmrəy olduğunu və aprel döyüşlərində qəhrəmanlıq göstərmiş oğullarımızın döyüş yolunu şərəflə davam etdirərək, hər an Vətənin müdafiəsinə hazır olacaqlarına söz verdi.

Valideynlərdən Nurəddin Mehdiyev və Həqiqət Eminəliyeva çıxış edərək övladlarının Vətən qarşısında müqəddəs borclarını yerinə yetirmək üçün and içmələrindən qürur duyduqlarını ifadə etdilər. Hər iki valideyn öz övladlarının timsalında bütün gənc əsgərlərə cansağlığı və hərbi xidmətdə uğurlar arzuladılar.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

## Ordu və cəmiyyət

# “Ali Baş Komandanın bir əmri kifayətdir ki, ərazi bütövlüyümüz bərpa olunsun”

*"Ordu və cəmiyyət" rubrikasının qonağı Milli Məclisin deputatı, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirovdur.*



***- Elman müəllim, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti hərbi təxribatların qarşısını əks-həmlə ilə aldı və düşmənə sarsıdıcı zərbələr endirdi. Ordumuz hərbi əməliyyatlarda mövqe üstünlüyü qazandı...***

- Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dəfələrlə qeyd edib ki, "Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün, sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır." Ermənistan tərəfi bu fikirlərə uzun müddət ərzində bir təbliğat kampaniyasının tərkib hissəsi kimi yanaşırdı. Elə bu məntiqlə də aprelin 1-dən 2-nə keçən gecə növbəti silahlı təxribatlara əl atdı və layiqli cavabını aldı. Ermənistanın Azərbaycanla dövlət sərhədində və qoşunların təmas xəttində törətdiyi növbəti hərbi qarşıdurma zamanı Azərbaycan Ordusu qüdrətini, sarsılmaz döyüş ruhunu və üstünlüyünü nümayiş etdirdi.

Prezident İlham Əliyev təxribatı şərtləndirən amillərə toxunaraq qeyd etdi ki, "Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın." Cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistan işğalçı dövlət olaraq münaqişənin davam etməsində, hazırkı status-kvo vəziyyətinin qorunub saxlanmasında maraqlıdır. İşğalçı dövlət münaqişənin həllində müsbət tendensiyaların işartısını gördükdə belə, bütün qüvvələrini səfərbər edərək danışıqları pozmağa səy göstərir.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin IV Beynəlxalq Nüvə Sammitində iştirakı və ABŞ-da keçirdiyi çoxsaylı görüşlər, xüsusilə də dövlət katibi Con Kerri və vitse-prezident Cozef Bayden ilə apardığı işgüzar danışıqlar Ermənistanda şok effekti yaratdı. Düşmən ölkə Cozef Baydenin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ərazi bütövlüyü və suverenlik prinsipləri çərçivəsində həlli ilə bağlı mövqeyini süngi ilə qarşıladı. Rəsmi İrəvan bu vəziyyətin münaqişənin həlli prosesinə təsirindən ehtiyatlanaraq növbəti dəfə silahlı təxribatlar törətdi.

Aprel döyüşləri ordumuzun qətiyyətli zəfərinin başlanğıc nöqtəsidir. Bir neçə strateji yüksəklik üzərində milli bayrağımız dalğalanmaqdadır. Düşmən böyük itkilər verdi. Ermənistan cəmiyyətində mənəvi böhran getdikcə dərinləşir. Təkcə təmas xəttində deyil, Xankəndi, Şuşa və digər Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan erməni əhalisi də kütləvi surətdə qaçır. Bu proses əvvəllər də var idi. Lakin Azərbaycan Ordusunun rəşadəti sayəsində daha sürətli xarakter aldı.

***- Aprel zəfəri əslində ulu öndər Heydər Əliyevin atəşkəsdən sonrakı mərhələdə başladığı ordu quruculuğu prosesinin məntiqi nəticəsi deyildimi?***

- Əlbəttə, tamamilə doğrudur. Dünya şöhrətli siyasi xadim, dahi rəhbər Heydər Əliyev ilk növbədə Azərbaycanın hədəflərini müəyyən etdi. Birinci hədəfimiz ondan ibarət idi ki, işğal altındakı torpaqlarımız düşməndən azad edilməlidir. Bəs bunu necə reallaşdırmalı? İlk olaraq nizami ordu quruculuğu prosesinə başlanıldı. "Azərbaycanın müstəqilliyini daimi və əbədi etməliyik" deyən ulu öndər eyni zamanda bu məqsədə çatmaq üçün güclü, ən müasir orduya malik olmağımızı əsas hədəf kimi müəyyən etdi. Bu gün ulu öndərin əsasını qoyduğu inkişaf strategiyası Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox sürətlə dəyişən dünyamızın reallıqlarına söykənərək çevikliklə həyata keçirilir. Aprelin əvvəllərində ordumuzun düşmənə əks-həmlə ilə cavab verməsi və sarsıdıcı zərbələr endirməsi bir daha təsdiqlədi ki, ulu öndərin başladığı səmərəli ordu quruculuğu layiqli nəticəsini verib.

***- Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatları və onun nəticələri kontekstində münaqişənin bundan sonrakı tənzimlənməsi istiqamətində hansı real addımlar atıla bilər?***

- Əvvəla, Ermənistanın son hərbi təxribatı və ona Azərbaycan Ordusunun layiqli cavabı müəyyən nəticələrə gəlməyə əsas verir. Birinci nəticə ondan ibarətdi ki, Ermənistan ordusunun və qondarma "Dağlıq Qarabağ Respublikası silahlı qüvvələri"nin kifayət qədər güclü olması, ən müasir silahlarla təchizatı və əsgər-zabit heyətinin yüksək döyüş ruhuna malik olması ilə bağlı erməni təbliğat maşınının illərlə formalaşdırdığı mif sabun köpüyü kimi dağıldı.

İkinci nəticədə aydın oldu ki, beynəlxalq birliyin subyektlərinin mütləq əksəriyyəti, o cümlədən böyük dövlətlər və beynəlxalq təşkilatlar, əsasən, Azərbaycanın haqq işini müdafiə etdilər. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin aprelin 9-da keçirilən iclasında bildirdiyi kimi, "Bütün həmsədr ölkələr - ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin. Qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həlli haqqında bəyanatlar verdilər və biz də bunu istəyirik". Hətta iş o yerə gəlib çatdı ki, Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycanı qınaq obyektinə çevriləcəyindən ehtiyatlanaraq yaranmış vəziyyətin geniş təhlilə ehtiyacı olduğunu vurğuladı. Xüsusilə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ayrı-ayrı üzvlərinin davranışı rəsmi İrəvanın "yuxusuna haram qatdı". Xüsusilə Qazaxıstan və Belarus dövlətlərinin Azərbaycanın mövqeyini birmənalı olaraq müdafiə etməsini böyük məmnunluq hissi ilə qarşılayırıq. Türkiyə hər zaman olduğu kimi, bu dəfə də Azərbaycanın yanında oldu. Dövlətlərimizin qardaş, dost, strateji müttəfiq olması həqiqəti növbəti dəfə tarixin sınağından çıxdı. Ermənistan mətbuatı və ziyalıları isə ölkələrinin təkləndiyini, müttəfiqsiz qaldığını etiraf etməkdə davam edirlər. Üçüncü nəticəyə görə, 1994-cü ildən bəri davam edən nisbi atəşkəs dövründə ilk dəfə olaraq Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbə endirməsi bir sıra amillərlə bağlıdı. Xüsusi olaraq qeyd edək ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğuna prioritet sahə kimi yanaşması və bu istiqamətdə göstərdiyi misilsiz fəaliyyət Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Son 13 il ərzində Azərbaycanın hərbi arsenalı ən müasir silahlarla təmin edilib. Ordunun şəxsi heyətinin hərbi vətənpərvərlik ruhu olduqca yüksəkdir. Ən başlıcası isə, hakimiyyət və xalq arasında monolit birlik var. Xalq Prezidentini sevir, Prezident isə xalqın mənafeyini bütün meyarlardan üstün tutur. Məhz bu reallıq ölkəmizdə siyasi sabitliyin formalaşmasını təmin edən başlıca amilə çevrilib. Bütün bunlar Ermənistanda yoxdu. Ermənistan prezidentinin sosial bazası çoxdan tükənib. Mövcud rejimə erməni xalqı nifrət edir və öz ovladlarını bu rejimin müdafiəsi naminə müharibəyə göndərmək istəmir. Elə bu səbəbdən də Ermənistanda yeni müxalifət düşərgəsi - "Əsgər anaları hərəkatı" formalaşıb.

Bu reallıqlar işğalçı Ermənistan üçün dərs olmalıdı. Əks halda Ermənistanı hərbi cəbhədə labüd biabırçı məğlubiyyət gözləyir.

***- Nəhayət, ənənəvi bir sual. Azərbaycan Ordusunun əsgər və zabitlərinə sözünüz və arzularınız.***

- Son illər orduda aparılan uğurlu islahatları da aprel döyüşlərinin qələbəsini təmin edən amillərdən hesab edirəm. Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığı əsasında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Silahlı Qüvvələrdə keçirilən irimiqyaslı təlimlər öz real nəticələrini göstərməkdədir.

Başlıca olaraq qeyd etmək istəyirəm ki, Azərbaycan əsgəri hansı amalla, hansı məqsədlə mübarizə apardığının fərqindədir. Lakin erməni əsgəri nəyə görə mübarizə apardığını da bilmir. Çünki İrəvandan zorla göndərirlər ki, get Dağlıq Qarabağda döyüş. O isə Dağlıq Qarabağ haqqında ancaq eşidib və oranı heç zaman vətəni hesab etməyib. Ona görə də erməni əsgərində heç bir vətənpərvərlik ruhu yoxdur. Bu səbəblərdən də erməni əsgəri silah-sursatını atıb ön cəbhəni tərk etmək istəyir. Qarşı tərəfdə ermənilər postlar qurublar ki, əsgəri qaçıb getməsin, fərariliyin qarşısını alsın. Lakin bizdə tam əksinə oldu. Döyüş gedən günlərdə gənclərimiz kütləvi şəkildə hərbi xidmətə yazılıb Vətən torpaqlarının azadlığı uğrunda döyüşə hazır olduqlarını göstərdilər. Bəli, sadaladığım səbəb və amillər aprel döyüşlərində qələbəmizi təmin etdi. Aprel döyüşlərindən sonra bütün ictimaiyyət, uşağından tutmuş ağsaqqalınadək hər kəs əsgər görərkən onlara cəbhədən qalibiyyətlə qayıtmış qəhrəman kimi baxır. Həqiqət budur ki, aprel döyüşlərində Azərbaycan əsgəri sözünü dedi və xalqın ürəyində özünə heykəl ucaltdı. Qürurla deməliyəm ki, ordumuz bu qələbələri davam etdirmək əzmindədir. Ali Baş Komandanın bir əmri kifayətdir ki, o müqəddəs vəzifə, o müqəddəs missiya yerinə yetirilsin, ərazi bütövlüyümüz bərpa olunsun, torpaqlarımızı işğaldan azad edib üçrəngli bayrağımız o yerlərdə dalğalandıraq və ən nəhayət, doğma ata-baba yurdlarımıza qayıdaq.

Sizə müqəddəs torpaqlarımızın azadlığı naminə xidmətlərinizdə yeni-yeni nailiyyətlər və uğurlar arzulayıram.

***- Müsahibəyə görə çox sağ olun.***

**Söhbəti apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Düşmən dövlət sərhədində növbəti təxribat törədib

***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların təmas xəttində əldə edilən razılaşmaya baxmayaraq düşmən tərəf atəşkəs rejimini pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədib.***

Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yerləşən mövqeləri mayın 12-də saat 10.30-da Ermənistanın Yexeqnadzor rayonu ərazisindəki mövqelərdən atəşə tutulub.

Düşmən tərəfinin təxribatı nəticəsində bir nəfər hərbi qulluqçumuz əsgər Quluzadə Yusif Eldar oğlu yüngül yaralanıb. Hərbi qulluqçumuza lazımi tibbi yardım göstərilib, həyati təhlükəsi yoxdur.

Əlahiddə Ümumqoşun Ordunun həmin istiqamətlərdə yerləşən bölmələrinin dəqiq cavab atəşi ilə düşmən susdurulub.

Bildiririk ki, düşmən təxribatlarının nəticəsi olaraq baş verənlərə görə bütün məsuliyyət Ermənistanın kriminal hərbi-siyasi rejiminin üzərinə düşür.

# “Ermənistana məxsus iki pilotsuz uçuş aparatı məhv edilib”

***Ermənistan mətbuatının guya Azərbaycana məxsus pilotsuz uçuş aparatının (PUA) vurulmasına dair yaydığı məlumatla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər ki, Silahlı Qüvvələrimizin sərəncamında olan bütün PUA-lar yerindədir.***

Dəqiq məlumata görə Ermənistan tərəfi səhvən öz PUA-nı vuraraq yerə salıb və bu cür məlumatlar yaymaqla fikri həqiqətdən yayındırmaq istəyir.

Müdafiə Nazirliyi bildirib ki, mayın 13-də cəbhə bölgəsində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus "X-55" tipli PUA bölmələrimiz tərəfindən xüsusi üsulla endirilib.

Beləliklə, mayın 13-də Ermənistana məxsus 2 PUA məhv edilib.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşelərinin cəbhəboyu zonaya səfəri təşkil olunub



Xarici ölkələrin Azərbaycanda akkreditə olunan hərbi attaşelərinin mayın 11-də cəbhəboyu zonaya səfəri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Müdafiə və Xarici İşlər nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən səfərdə 13 ölkədən 20-dən artıq hərbi attaşe iştirak edib.

Tərtər rayonunun Əskipara kəndinə gələn hərbi attaşelər mayın 10-da Ermənistan silahlı qüvvələrinin ağ fosfor mərmisi atdığı əraziyə baxış keçiriblər. Daşınması mümkün olmadığından mərmi mütəxəssislər tərəfindən partladılaraq məhv edilib.



# Tərtərli şəhid atası: Oğul Vətən üçündür

***Azərbaycan Ordusunun şəhid hərbçisi Nicat İsgəndərovun təltif edildiyi medal onun ailəsinə təqdim olunub.***

Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşdə şəhid olan "N" hərbi hissəsinin giziri İsgəndərov Nicat Bəhruz oğlunun Prezidentin Sərəncamı ilə layiq görüldüyü "İgidliyə görə" medalı onun ailəsinə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Tərtər şəhərinin mərkəzi meydanında keçirilən mərasimdə Müdafiə Nazirliyinin, Tərtər rayon İcra Hakimiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları və əlilləri, rayon ictimaiyyəti, hərbi qulluqçular və məktəblilər iştirak ediblər. Əvvəlcə respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin ruhlarına dualar oxunub.



Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, aprel döyüşlərində Azərbaycan hərbçilərinin göstərdiyi şücaətdən, tərtərlilərin torpaqlarımızın müdafiəsində fəal iştirakından, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, cəbhədə baş verən son hadisələr zamanı Tərtər camaatı ordu ilə monolit birlik nümayiş etdirdi. “Məhz xalqla ordunun bu birliyi sayəsində strateji əhəmiyyətə malik bir neçə yüksəklik düşməndən azad olundu. Ordumuz mövqelərini möhkəmlətdi. Düşmən bir daha anladı ki, Azərbaycanın güclü ordusu, qətiyyətli Ali Baş Komandanı var.”

Şəhidin ailəsinə başsağlığı verən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani bildirib ki, cəbhə xəttində erməni silahlılarının bütün təxribat cəhdlərinin qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınır, düşmənə layiqli cavab verilir.

Mərasimdə Abdulla Qurbani "İgidliyə görə" medalını şəhidin atasına təqdim edib.

Öz çıxışı ilə tədbir iştirakçılarına kövrək hisslər yaşadan şəhid atası Bəhruz İsgəndərov deyib: "Oğul Vətən üçündür. Şəhidlər ölməz, Vətən bölünməz."

Tədbirdə vətənpərvərlik mahnıları səsləndirilib.

# “Əsgər abidəsi” ziyarət edilib



Dünya tarixində 1941-1945-ci illərin Böyük Vətən muharibəsi ən dəhşətli, ən çox insan qırğını törədən müharibələrdən biri olub. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, onun oğulları müharibənin əvvəlindən axırınadək bu savaşda fəal iştirak etmişdilər. Ölkəmizin bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb olunmuşdu.

Böyük Vətən müharibəsinin 71-ci ildönümü ölkəmizdə geniş qeyd olunub. Silahlı Qüvvələrin bütün hərbi hissələrində də bu əlamətdar günlə bağlı təntənəli tədbirlər keçirilib.

"N" hərbi hissəsinin şəxsi heyəti həmin gün veteranların bir qrupu ilə görüşüb. Əvvəlcə Mingəçevir şəhərindəki "Əsgər abidəsi" ziyarət edilib.

Tədbirdə iştirak edən veteranlar odlu-alovlu döyüş yollarından maraqlı xatirələrini dilə gətiriblər. Onların şərəfli ömür yolu bugünkü və gələcək nəsillərə, habelə, xidmətdə olan əsgərlərə örnəkdir. Hazırda cəmiyyətimizdə yetişməkdə olan gənc nəslin mənəvi-əxlaqi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu insanların ömür yolu əsl nümunədir.



Tədbir iştirakçıları o ağır günlərdə xalqımızın istər ön cəbhədə, istərsə də arxa cəbhədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqlardan söz açaraq qeyd ediblər ki, İkinci Dünya müharibəsi illərində qazanılan qələbə yer kürəsində sülhün və əmin-amanlığın təmin edilməsində böyük rol oynayıb.

Müharibə veteranları onlara göstərilən diqqət və qayğıya görə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirərək, son aprel döyüşlərində ordumuzun qazandığı uğurlardan danışıblar. Qeyd ediblər ki, döyüş təcrübələrini hər zaman əsgər və zabitlərlə bölüşməyə hazırdırlar.

Hərbi hissənin nümayəndələri də çıxış edərək veteranların qəhrəmanlıqlarından nümunə götürdüklərini, Vətənimizin ərazi bütövlüyünü təmin etmək üçün haqq savaşına hazır olduqlarını bildiriblər.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### ABŞ Prezidenti Yaponiyanın Xirosima şəhərini ziyarət edəcək



Yaponiya hökumətindən və Ağ Evdən verilən məlumata görə, ABŞ Prezidenti Barak Obama mayın 27-də Xirosima şəhərini ziyarət edəcək.

Mayın 10-da axşam Yaponiya hökuməti elan edib ki, ABŞ Prezidenti G7 ölkələrinin İse-Şimada keçiriləcək ikigünlük sammitindən sonra Xirosimaya səfər edəcək. Barak Obama 1945-ci ildə amerikalılar tərəfindən atom bombasının atıldığı Xirosima şəhərini ziyarət edən ilk ABŞ Prezidenti olacaq. Ağ Evdən bildiriblər ki, Prezidentin bu səfəri onun bütün dünyada sülhün bərqərar olunmasına və nüvə təhlükəsinin aradan qaldırılmasına yönələn cəhdlərinin daha bir təsdiqi olacaq.

### Çox sürətlə enerji toplayan akkumulyator kəşf edilib



Oslo Universitetinin alimləri tərəfindən hazırlanmış akkumulyator saniyədən də az müddətə enerji toplayır. Lakin bu akkumulyatorun tutumu azdır.

Professor Ola Nilsen və universitetin məzunu Knut Byarne Qanqrud lazımi enerji doldurma sürətinə nail olmaq və ölçüsünü kiçiltmək üçün batareyanın tutumunu azaldıblar.

İstehsalçılar ictimai nəqliyyat üçün ekoloji cəhətdən təmiz enerji mənbəyi yaratmağı planlaşdırır. Akkumulyatorun enerjisi dayanacaqlar arasında olan məsafəni qət etmək üçün kifayətdir. Dayanacaqlarda isə avtobuslar xüsusi platformalarda enerji ilə doldurulacaq.

Sözügedən texnologiya nəqliyyat üçün ucuz enerji mənbəyidir.

### ABŞ-a məxsus xam neftin yükləndiyi ilk tanker Yaponiya sahillərinə çatıb



Xam neftin ixracı ilə əlaqədar ABŞ tərəfindən tətbiq olunan qadağadan 40 il sonra bu ölkəyə məxsus xam neftin yükləndiyi ilk tanker Yaponiya sahillərinə yan alıb. Yaponiyanın xam neftin topdan ticarəti ilə məşğul olan "Cosmo Oil" şirkəti 2015-ci ildə ABŞ-da neft ixracına qoyulan qadağa ləğv edildikdən sonra ilk dəfə bu ölkədən neft almaq barədə qərar qəbul edib. Neft böhranı ilə bağlı qadağa 1975-ci ildə tətbiq edilmişdi.

Göyərtəsində 300 min barrel neft olan tanker mayın 10-da Yaponiyanın neft emalı zavoduna çatıb.

### Əlcəzairdə ən hündür minarəli məscid tikiləcək



2017-ci ildə Əlcəzairdə 265 metr hündürlüyündə minarəsi olan Cama Əl-Cəzair məscidi inşa olunacaq.

Məsciddə 120 min nəfər eyni vaxtda ibadət edə biləcək. Məsciddə Quranın tədrisi ilə məşğul olan məktəblər, İslam incəsənəti və tarixi muzeyi, milyonlarla kitabın olduğu kitabxana nəzərdə tutulub. Məscidin tikintisi 1.4 milyard dollara başa gələcək.

Hazırda dünyanın ən hündür minarəli məscidi Mərakeşin Kasablanka şəhərindədir. Minarənin hündürlüyü 210 metrdir.

**AZƏRTAC-ın materialları əsasında**

# “Şahin” hərbi idman oyunlarının respublika finalı keçirilib

## Məktəblilər arasında keçirilən yarışın qalibləri müəyyənləşib



***Mayın 10-da məktəblilərin hərbi hazırlığının, vətənpərvəlik ruhunun yüksəldilməsi məqsədilə "Şahin" hərbi-idman oyununun respublika finalı keçirilib.***

"Şahin" hərbi-idman oyunu Gənclər və İdman, Fövqəladə Hallar, Mədəniyyət və Turizm, Təhsil və Müdafiə Nazirliklərinin, Respublika Veteranlar Şurasının birgə qərarı ilə 1996-cı ildən başlayaraq orta məktəblərin X-XI sinif şagirdləri arasında keçirilir.

Builki final yarışı ənənəvi olaraq ümummilli lider Heydər Əliyevin doğum günündə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilib.

Təntənəli mərasimdə ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov açıb. Qonaqları salamlayan lisey rəisi şagirdləri əlamətdar gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb. Bildirib ki, "Şahin" hərbi-idman oyununun respublika finalının ümummilli lider Heydər Əliyevin doğum günündə keçirilməsi artıq ənənə halını alıb. "Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində möhkəmlənib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali Baş Komandanın gənclərə diqqət və qayğısı daim hiss edilir. Hər biriniz öz üzərinizdə çalışmalı, Vətənimiz, millətimiz üçün layiqli övlad olaraq yetişməlisiniz," - deyə polkovnik vurğulayıb.

Sonra Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Firudin Qurbanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin




rəisi müavini general-mayor Novruzəli Orucov və başqaları çıxış edərək şagirdlərə uğurlar arzulayıblar.

Yarış başa çatandan sonra qaliblər müəyyənləşdiriləb.

**I yer** - Bakı şəhəri, Nəsimi rayonunun komandası.

**II yer** - Bakı şəhəri, Xətai rayonunun komandası.

**III yer** - Tərtər rayonunun komandası.

Final yarışında I, II və III yerləri tutmuş komandalar, ayrı-ayrı mərhələlərdə fərqlənənlər, hakimlər və hərbi rəhbərlər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# Qəhrəmanın xatirəsinə həsr olunmuş yarış

***Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov xalqımızın cəsur oğullarından idi. Onun göstərdiyi qəhrəmanlıq yaddaşımıza əbədi həkk olunub. Mübariz Vətən uğrunda, torpaq uğrunda şəhid oldu, adını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazdı. Hərbçi kimi üzərinə düşən vəzifəni bacarıqla və sonadək yerinə yetirdi. Xalq cəsur oğlunu heç vaxt unutmur, yaddan çıxarmır. Qəhrəmanın adı həmişə hörmətlə anılır, müntəzəm olaraq onun xatirəsinə tədbirlər, idman yarışları təşkil edilir.***

Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində də tez-tez qəhrəmanın şərəfinə tədbirlər keçirilir. Aprelin 2-dən 7-dək Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş bölüklərarası hərbiləşdirilmiş idman yarışı da belə tədbirlərdən biri idi. Birinciliyin keçirilməsində əsas məqsəd kursantlarda həm vətənpərvərlik ruhunu daha da yüksəltmək, həm də çəldlik, cəviklik kimi fiziki keyfiyyətləri inkişaf etdirməkdir. Tədbir Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin idman bazasında baş tutmuşdu.

Hərbiləşdirilmiş idman yarışı beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçirildi. Komanda üzvləri gücləri 100 metr məsafəyə qaçışda, turnikdə dartınmada, qumbara atmada, kəndirdartmada və güllə atmaqda sınadılar. Kursantlar komandaların irəli çıxarmaq üçün əzmlə mübarizə apardılar. Hamının məqsədi yalnız qələbə qazanmaq idi. Hiss olunurdu ki, gələcəyin zabitləri yarışa çox ciddi hazırlaşıblar.

Nəticələr elan olunandan sonra məlum oldu ki, yarışda 1-ci yerə 49 xalla 2-ci bölük çıxıb. 2-ci yerdə 39 xalla 3-cü bölük qərarlaşıb. 3-cü yerin sahibi isə 38 xalla 16-cı bölük olub. Yarışın təşkilatçıları qalibləri təbrik edib və növbəti sınaqlarda da onlara uğurlar arzulayıblar. Sonda yüksək nəticə göstərən komanda üzvlərinə mükafatlar, diplom və fəxri fərmanlar təqdim olunub.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Diqqət və qayğıya görə minnətdarlıq

Hörmətli redaksiya!

Mən Qarabağ müharibəsinin iştirakçısı, II qrup Qarabağ əlili, ehtiyatda olan zabitəm. Səhhətimdə yaranmış problemlə əlaqədar vaxtaşırı müalicə almağa ehtiyacım var. Bu yaxınlarda aparılan əsaslı yenidənqurmadan sonra 2015-ci ilin sentyabrında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin açılışını etdiyi Respublika Əlillərin Bərpa Mərkəzinə üz tutdum və stasionar müalicəyə qəbul edildim. Onu qeyd etmək istəyirəm ki, dünya standartlarına cavab verən bu mərkəzdə istər müharibə əlilləri, istərsə də digər qrupa aid olan əlillər üçün çox gözəl şərait yaradılıb.

Bu müəssisədə yaradılmış şərait və tibb personalının qayğısı nəticəsində yaxşı müalicə aldım. Onu qeyd edim ki, Respublika Əlillərin Bərpa Mərkəzində yaradılmış yüksək şərait, əslində, dövlətimizin və onun rəhbərliyinin öz ordusuna və vətəndaşına göstərdiyi diqqətin bariz nümunəsidir. Bu və ya digər səbəbdən sağlamlığını itirmiş insanlar bu şəfa ocağında müalicə alarkən bir daha dövlətin qayğısını öz üzərlərində hiss edirlər.

Respublika Əlillərin Bərpa Mərkəzində dövlətin vətəndaşları üçün yaratdığı yüksək şəraitə görə ilk növbədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm.

Müəssisədə bizə göstərdikləri qayğıya, aldığımız keyfiyyətli müalicəyə görə mərkəzin rəhbərliyindən tutmuş həkimlərinə və tibb personalına təşəkkürümü qəzetiniz vasitəsilə çatdırmağınızı xahiş edirəm.

**Zadiq MUSTAFAYEV,**
**II qrup əlil**

Baş leytenant Məmmədli Qadir Tövrət oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Qurbanov Xalid Yavər oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | mayor Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 253 Nüsxə 4700 |